# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/5** **07 fevral 2020-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditor yoxlamalarının keyfiyyətinin yaxşılaşdırılması haqqında” 2019-cu il 7 fevral tarixli 1/9 nömrəli sərəncamında dəyişiklik edilməsi barədə**

Sərbəst auditor Yaşar İdris oğlu Qiyasov tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatasına ünvanlanmış “Y.Qiyasovun “İnvest Audit” MMC-nin auditoru kimi fəaliyyətini dayandıraraq sərbəst auditor kimi fəaliyyət göstərməyə başlaması səbəbindən onun səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara cəlb ediləcək auditorların siyahısında sərbəst auditor kimi qeyd edilməsi barədə” 2020-ci il 31 yanvar tarixli müraciətini və Palatanın Hüquqi təminat idarəsinin rəisi M.Abbasovun 2020-ci il 4 fevral tarixli təklifini nəzərə alaraq **qərara alıram:**

1. Auditorlar Palatası sədrinin “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditor yoxlamalarının keyfiyyətinin yaxşılaşdırılması haqqında” 2019-cu il 7 fevral tarixli 1/9 nömrəli sərəncamın mətnində Yaşar İdris oğlu Qiyasovun sərbəst auditor kimi fəaliyyət göstərməsi qeyd edilsin.
2. Sərbəst auditor Y.Qiyasova tapşırılsın ki, səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara cəlb edildiyi təqdirdə Auditorlar Palatası Şurasının 2017-ci il 25 avqust tarixli 289/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara dair Qayda”nın tələblərinə ciddi riayət etsin.
3. Bu sərəncamın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**